COUNCIL OF EUROPE
CONSEIL DE L'EUROPE

3 aprel 2020

# COVID-19 pandemiyası zamanı
# uşaqların cinsi istismar və zorakılıqdan müdafiəsini gücləndirmək barədə
# Lanzarote Komitəsi sədrinin və sədr müavininin bəyanatı

COVID-19 virusunun yayılma tempini azaltmaq və səhiyyə sistemlərimizin bu misli görünməmiş pandemiyanın öhdəsindən gələ bilməsini təmin etmək Avropa Şurasına üzv dövlətlərin əksəriyyəti üçün prioritetə çevrilməklə onları sərt təcridetmə tədbirlərinə əl atmağa vadar edib. Uşaqların böyük əksəriyyəti üçün təcridetmə, təhlükəsiz bir mühit daxilində qorunma deməkdir. Ancaq qız və oğlan uşaqlarının çoxu üçün təcridetmə zorakılıq, o cümlədən cinsi zorakılıq və istismar hallarına həssaslığın artması ilə nəticələnə bilər. Buna görə də COVID-19 böhranının idarə edilməsi tədbirlərinin təsirini qiymətləndirmək və uşaqları müdafiə sistemlərinin cavab tədbirlərini yeni vəziyyətə uyğunlaşdırmaq çox vacibdir. Uşaqların cinsi istismardan və cinsi zorakılıqdan müdafiəsi haqqında Avropa Şurası Konvensiyasının (Lanzarote Konvensiyası) müddəaları həmişə olduğu kimi aktualdır və yerinə yetirilməlidir.

Bu Konvensiyaya nəzarət edən Komitənin (Lanzarote Komitəsi) sədri və sədr müavini olaraq, biz, iştirakçı dövlətləri Konvensiyaya uyğun olaraq uşaq hüquqlarının qorunmasını davam etdirməyə çağırırıq ki, bu da onlardan uşaqları hər zaman və hər yerdə müdafiə etmək və cinsi zorakılıq və istismarın qarşısını almaq və cavab təmin etmək üçün konkret tədbirlər görməyi tələb edir.

Getdikcə daha çox ölkələr təcridetmə rejiminə keçdikcə, uşaqların çoxunun, xüsusilə də əqli və ya fiziki qabiliyyətin məhdudluğu və ya asılılıq vəziyyəti səbəbindən həssas durumda olan uşaqların ya ev, ya da evdən kənar qayğı şəraitində və ya müvəqqəti qaçqın düşərgələrində və ya azadlıqdan məhrumetmə yerlərində cinayət törədənlərlə bir yerdə qapanıb qalması faciəvi bir həqiqətdir. İştirakçı dövlətlər bütün uşaqların təhlükəsiz mühitdə təcrid olunmasını təmin etməlidirlər.

Bundan əlavə, təcridetmə tədbirləri nəticəsində uşaqlar getdikcə internetdə daha çox vaxt keçirir və dostları ilə ünsiyyət qurmaq, hisslərini ifadə etmək, öyrənmək, əylənmək üçün sosial mediayadan asılı olurlar. EUROPOL təşkilatının qeyd etdiyi kimi, seksual xarakterli cinayət törədənlər bu vəziyyətdən istifadə edirlər və daha çox uşağın informasiya və kommunikasiya texnologiyaları ilə asanlıqla həyata keçirilən, internetdə seksual xarakterli məqsədlərlə təqibi və hədə-qorxu gəlinməsi, kiberhücum və ya digər cinsi istismar qurbanı olma ehtimalı var. Bu cür onlayn risklərin artması barədə məlumatlılığı artırmaq son dərəcə vacibdir.

Bu yaxınlarda Uşaqlara qarşı Zorakılığa Son qoyulması üzrə Qlobal Tərəfdaşlıq və YUNISEF, Humanitar Fəaliyyətdə Uşaqların Müdafiəsi Alyansındakı tərəfdaşları ilə birlikdə qeyd etdiyi kimi **cinsi istismar və zorakılıq hallarının qarşısının alınması və narahatlıq doğuran problemlər barədə etibarlı şəkildə məlumat verilməsi COVİD-19 virusu üzrə bütün profilaktik və nəzarət tədbirlərinin ayrılmaz tərkib hissəsi olmalıdır.**

**Lanzarote Konvensiyasının bütün iştirakçı dövlətlərini uşaqların cinsi zorakılıqdan müdafiəsi hüququ və bu məqsədə çatmaq üçün göstərilən xidmətlər və görülən tədbirlər barədə uşaqların məlumatlandırılmasını təmin etməyə israrla çağırırıq**. Uşaqlara qarşı cinsi istismar və cinsi zorakılığın qarşısının alınması və cinsi zorakılıq qurbanlarına qayğı göstərmək vəzifələrini yerinə yetirməyə hər kəsin davam edə bilməsi üçün vəziyyəti mütəmadi olaraq nəzərdən keçirmək, ehtiyacları qiymətləndirmək və tədbirləri uyğunlaşdırmaq məqsədilə milli, regional və yerli hakimiyyət orqanları arasında davamlı dialoq, həmçinin vətəndaş cəmiyyəti və özəl sektorla əməkdaşlıq olmalıdır.

Gücləndirilmiş təcridetmə tədbirləri uşaqları sui-istifadə, biganəlik, istismar və zorakılıq riskinə daha çox məruz qoyduğu üçün həm uşaqların, həm də bütövlükdə ictimaiyyətin yardım xətləri və qaynar xətlərin bütün sutka ərzində, həmçinin onlayn platformalar vasitəsilə işləməsi barədə bilməsi çox vacibdir. COVID-19 pandemiyası bu xidmətlərin artan tələblərə cavab vermək imkanlarına da təsir göstərdiyindən, iştirakçı dövlətlər heç bir yardım çağırışını cavabsız qoymamaq üçün lazımi insan resurslarına və avadanlıqlara malik olmalarını təmin etməlidirlər.

Uşaqların istifadə etmək hüququna malik olduğu həm fiziki, həm də psixoloji yardım və dəstək xidmətləri barədə uşaqların anladığı şəkildə məlumatlandırma təşəbbüslərinə yenidən diqqət yetirilməlidir. Bu, onlayn kampaniyalara başlamaq, uşaqlara qarşı cinsi istismar və cinsi zorakılığın qarşısını almaq üçün mövcud məlumatlandırma materiallarını milli səviyyədə yaymaqla və hər bir iştirakçı dövlətdə mövcud olan yardım xətləri və qaynar xətlərə diqqət çəkməklə edilə bilər.

Uşaqlarla bir yerdə təcrid olunan valideynlərə və qayğı göstərən şəxslərə bu böhran vəziyyətində öz emosiya və davranışlarını idarə etmək üçün dəstək verilməlidir. Bundan əlavə, öz uşaqlarına qarşı cinsi zorakılığın, o cümlədən onlayn zorakılığın qarşısını almaq və cavab vermək üzrə onların potensialları artırılmalıdır. Ünsiyyət səyləri böyüklərin öz uşaqlarını qorumaq üçün görə biləcəkləri tədbirlər haqqında məlumatlılığını artırmaq məqsədi daşımalıdır. Təcridetmə, həmçinin ailə üzvləri arasında əlaqələri gücləndirmək və daha da etibar yaratmaq üçün bir fürsətdir.

Avropa Şurası bir sıra məlumatlandırma materialları hazırlamışdır ki, həmin materialları bir sıra dillərdə xüsusi veb səhifədə əldə etmək mümkündür: https://www.coe.int/en/web/children/covid-19.

Bizə məlumdur ki, bəzi milli rəhbərliklər və qeyri-hökumət təşkilatları uşaqlara qarşı cinsi zorakılığa son qoyulması ilə bağlı bu pandemiyanın meydana çıxardığı spesifik problemlərə cavab vermək məqsədilə mübarizə aparırlar. Lanzarote Komitəsindəki bütün üzv və müşahidəçi dövlətləri öz səylərini davam etdirməyə və indiyə kimi göstərilmiş təşəbbüsləri lanzarote.committee@coe.int ünvanı vasitəsilə paylaşmağa çağırırıq ki, bir-birimizdən öyrənə və uşaqlara qarşı cinsi zorakılığa son qoymaq üçün kollektiv imkanlarımızı gücləndirə bilək. Avropa Şurası, koronavirus və uşaqlara həsr olunmuş veb səhifəsini Avropadan və onun sərhədindən kənardan öyrənilmiş dərslər və tövsiyələr ilə mütəmadi olaraq yeniləyəcəkdir.

**COVID-19 pandemiyası ilə mübarizə apararkən yadda saxlamalıyıq ki, uşaqlara qarşı zorakılıq milyonlarla insanı qurbana çevirən başqa bir pandemiyadır. Gəlin hər ikisinə qarşı birlikdə mübarizə aparaq.**

George Nikolaidis
Lanzarote Komitəsinin sədri

Christel De Craim
Lanzarote Komitəsinin sədr müavini